## Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklər barədə

# Daşınmaz əmlak satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi

Vergi Məcəlləsinin 218-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər 1 yanvar 2016-cı ildən etibarən notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergiyə cəlb olunur.

Aşağıdakı hallarda yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsindən vergi tutulmur:

✦fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi,

✦daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında ailə üzvləri tərəfindən verilməsi,

✦daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması,

✦əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi.

Vergi yaşayış və qeyri-yaşayış sahələrinin hər kvadratmetri üçün 15 manat olmaqla aşağıda göstərilən qaydada hesablanır:

VM= S x ZƏ x 15 manat

VM—ödənəcək verginin məbləği

S—daşınmaz əmlakın sahəsi ($m^2$-lə)

ZƏ—Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş zona əmsalı

Qeyri-yaşayış sahələrinin təqdim edilməsi zamanı isə vergi məbləği əlavə 1,5 əmsal tətbiq edilməklə hesablanır:

| Zonalar | Zona əmsalı | Baza məbləği | Vergi məbləği |
|---|---|---|---|
| ***Bakı şəhəri*** | | | |
| Zona 1 | 4,0 | 15 manat | 60 manat |
| Zona 2 | 3,0 | | 45 manat |
| Zona 3, 4 | 2,2 | | 33 manat |
| Zona 5, 6 | 1,8 | | 27 manat |
| Zona 7, 8, 9 | 1,5 | | 22,5 manat |
| Zona 10, 11, 12 | 1,2 | | 18 manat |
| ***Digər regionlar*** | | | |
| Gəncə, Sumqayıt və Xırdalan | 1,5 | 15 | 22,5 manat |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan | 1,2 | 15 | 18 manat |
| digər rayon (şəhər) və qəsəbələr (kəndlər) | 0,5 | 15 | 7,5 manat |

VM = S x ZƏ x 15 manat x 1.5

1.5—qeyri-yaşayış sahələri üçün tətbiq olunan əmsal

**Misal 1:** Qurbanov Fərid "İçərişəhər" metro stansiyasının (Zona 1) yaxınlığında yerləşən və sahəsi 100 $m^2$ olan mənzildə 3 il yaşayış yeri üzrə qeydiyyatdadır. Həmin mənzilin satışı zamanı sadələşdirilmiş vergi məbləği aşağıdakı kimi hesablanır:

100 $m^2$ x 15 manat x 4=6000 manat

Mənzilin sahəsi — Baza məbləğ — Zona əmsalı

**Misal 2:** Tural Sultanovun mülkiyyətində 6-cı zonada sahəsi 300 $m^2$ qeyri-yaşayış sahəsi - zirzəmi var. Həmin zirzəmi təqdim etdiyi zaman sadələşdirilmiş vergi məbləği aşağıdakı kimi hesablanır:

300 $m^2$ x 15 manat x 1,8 x 1.5=12150 manat

Zirzəminin sahəsi — Baza məbləğ — Zona əmsalı — Qeyri yaşayış

**Misal 3:** Fiziki şəxs mülkiyyətində olan və Bakı şəhəri üzrə 2-ci zonada (3,0 əmsal) yerləşən 100 kvadrat metr sahəsi olan mənzilini və 3-cü zonada (2,2 əmsal) yerləşən 150 m2 sahəsi olan ticarət obyektini təqdim etmişdir.

Alqı-satqı əməliyyatlarını rəsmiləşdirən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi aşağıdakı kimi hesablanır:

Mənzilin satışı üzrə: 100 $m^2$ x 15 man. x 3 zona əmsalı =4.500 manat;

Ticarət obyektinin satışı üzrə: 150 $m^2$ x 15 man. x 2,2 zona əmsalı x 1.5 əmsal =7.425 manat.

Cəmi ödənilməli vergi: 11.925 manat.

Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş vergi alqı-satqı müqavilələrini təsdiq edən notarius tərəfindən hesablanaraq tutulur, 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödənilir və bu barədə "Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi" hesbat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilir.

# Fiziki şəxslərin gəlir vergisinə edilən dəyişikliklər

Vergi Məcəlləsinin fiziki şəxslərin gəlir vergisinə aid 100-cü, 102.1.6-cı maddələrinə dəyişiklik edilmiş, 99.3.12-ci və 101.5-ci maddələr əlavə edilmiş, 102.1.9-cu və 102.1.19-cu maddələri isə ləğv edilmişdir.

1. Yeni əlavə edilmiş 99.3.12-ci maddəyə əsasən idman mərc oyunlarından əldə edilən uduşlar qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aid edilmiş, 101.5-ci maddəyə əsasən isə bele uduşlardan 10 faiz dərəcə ilə ödəmə mənbəyində vergi tutulması müəyyən edilmişdir.

Vergi Məcəlləsinə yeni əlavə edilmiş 150.1.10-cu maddəyə əsasən vergi uduşlar əldə edən şəxsə ödəmələr verən şəxs tərəfindən ödəmə mənbəyində tutulur.

Bununla əlaqədar idman mərc oyunlarından əldə edilən uduşların gəlir vergisindən azad edilməsini göstərən 102.1.19-cu maddə ləğv edilmişdir.

**Misal:** Dadaşov Vüqarın "TOPAZ" məntəqəsində yazdığı kuponu ona 1240 manat məbləğində uduş gətirib. Ona ödənilən uduşdan hansı məbləğdə vergi tutulmalıdır?

**İzah:** Uduş üzrə ödəmə verən şəxs uduş məbləğindən 10 faiz ödəmə mənbəyindən vergi tutduqdan sonra qalan məbləği Dadaşov Vüqara verməlidir.

1240 manat * 10 faiz=124 manat (vergi məbləği)

2. Vergi Məcəlləsinin fiziki şəxslərin gəlir vergisinə aid 100-cü maddəyə edilmiş dəyişikliyə əsasən gəlirin dəqiqləşdirilməsi zamanı Azərbaycan Respublikasında ödəmə mənbəyində vergi tutulmuş dividend, faiz, icarə haqqı və royaltiylə yanaşı daşınmaz əmlakın təqdim edilməsindən gəlir və idman mərc oyunlarından əldə edilən uduşlar ümumi gəlirdən çıxarılır.

**Misal:** Rezident fiziki şəxsin illik gəliri 40.000 manat olmaqla 30.000 manatı malların təqdim edilməsindən, 4000 manatı dividenddən, 1000 manatı royaltidən və 5000 manatı idman mərc oyunlarından əldə edilən uduşlardan ibarət olmuşdur. Dividenddən, royaltidən və uduşlardan ödəmə mənbəyində vergi tutulmuşdur. Bu halda həmin gəlirlər ümumi gəlirdən çıxılmaqla dəqiqləşdirilmiş gəlir 30.000 manat (40.000-4000-1000-5000=30.000) təşkil edir.

3. Vergi Məcəlləsinin fiziki şəxslərin gəlir vergisinə aid vacib bir dəyişiklik 102.1.6-cı maddə ilə əlaqədardır.

Bu dəyişikliyə əsasən əgər əvvəl muzdlu işdən əldə olunan aylıq gəlir 250 manatadək (illik 3000 manatadək) olduqda, gəlirdən əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli (illik 12 misli) çıxıldıqdan sonra qalan məbləğ vergiyə cəlb olunurdusa, 2016-cı ildən etibarən isə aylıq gəlir 2500 manatadək (illik 30.000 manatadək) olduqda, gəlirdən ölkə üzrə yaşayış minimumunun 1 misli (illik 12 misli) çıxıldıqdan sonra qalan məbləğ vergiyə cəlb olunacaqdır.

**** 2016-cı il üzrə ölkə üzrə yaşayış minimumu 136 manat səviyyəsində müəyyən olunub***

| | | dəyişiklikdən əvvəl | dəyişiklikdən sonra |
|---|---|---|---|
| Vergi güzəşti daxil olan gəlirin yuxarı həddi | | 250 manat | 2500 manat |
| Gəlir vergisinin hesablanması | Aylıq | (250-YM)*14% | (2500-YM)*14% |
| | İllik | (3000-YM*12)*14% | (30000-YM*12)*14% |

***YM=yaşayış minimumunun 1 misli***

**Misal 1:** Fiziki şəxslərin gəlir vergisinə aid bu dəyişiklikdən əvvəl maaşı 300 manat olan orta məktəb müəllimindən 42 manat vergi tutulduqdan sonra ona çatan məbləğ 258 manat təşkil edirdisə, dəyişiklikdən sonra müəllimin maaşından 22,96 manat vergi tutulduqdan sonra 277,4 manat ödəniləcəkdir.

**Əvvəl:** 300-300*14%=258 manat

**Sonra:** 300-(300-136)*14%=277,04 manat

Misaldan göründüyü kimi əvvəlki illə müqayisədə dəyişiklikdən sonra müəllimin aldığı maaş 19,04 manat atrmışdır.

**Misal 2:** Fiziki şəxsin əsas iş yerində aylıq gəliri 600 manat təşkil edir. Bu halda onun ödəməli olduğu vergi məbləği nə qədərdir?

**İzah:** Ölkə üzrə yaşayış minimumunun 1 mislinin 136 manat olduğunu nəzərə alsaq, vergi məbləği aşağıdakı qaydada hesablanacaq

(600-136)*14%=64,96 manat

**Misal 3:** Fiziki şəxsin əsas iş yerində illik gəliri 28000 manat təşkil edir. Bu halda onun ödəməli vergi məbləği nə qədərdir?

(28000-136*12)*14%=3691,52 manat.


## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarla Bum kənd sakini **Məmmədov Fazil Cəmaləddin oğlunun** adına verilmiş JN 678 №-li (kod 40600038) olan **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi Qəbələ Rayon Şöbəsi tərəfindən 30 iyul 2007-ci il tarixdə Tüntül kənd sakini **Məmmədov Şahlar İman oğlunun** adına verilmiş A 009832 №-li **Torpaq sahəsinin planı və ölçüsü barədə sənəd** idiyi üçün etibarsız sayılır.



Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi: A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.